**Aygün MƏMMƏDOVA**
*BDU-nu Kitabxanaçılıq-informasiya fakültəsinin"Biblioqrafiyaşünaslıq"kafedrasının 2-ci kurs magistrantı, Milli Kitabxananın "Oxuculara xidmət" şöbəsinin kitabxanaçısı*

# AZƏRBAYCANDA DÖVLƏT BİBLİOQRAFİYAS: MÜASİR VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

*Açar sözlər:* "Birillik Azərbaycan Kitabiyyatı", Milli Kitabxana, Kitab Palatası

*Ключевыеслова:* "Ежегодник книга Азербайджана", Национальная библиотека, Книжная палата

*Keywords:*"Annual Azerbaijan Bibliography", National Library, Book Chamber

*Məqalədə Azərbaycanda dövlət biblioqrafiyasının müasir vəziyyəti və inkişaf prespektivləri tədqiq olunmuşdur. Eyni zamanda Dövlət biblioqrafiyasının yaradılmasında M.F.Axundov adına Milli Kitabxananın rolu şərh olunmuş, "Birillik Azərbaycan Kitabiyyatı"nın quruluşu əsasında təhlili, sənəd axınının vəiyyəti müəyyənləşdirilmişdir.*

Giriş: Biblioqrafik informasiyanın ilk rüşeymlərinə antik dövrdə belə təsadüf edilsə də bir fəaliyyət sahəsi kimi əsl inkişafı kitab çapının ixtirasından və yayılmasından sonra mümkün olmuşdur. M.Ə.İbrahimovun dediyi kimi, "Kitab insan zəkasının misilsiz kəşfidir. Heç bir xalqınmaddi və mənəvi sərvətlərinin tərəqqisini kitabsız təsəvvür etmək mümkün deyil. Fiziki və zehni əməyin nailiyyətlərini əbədiləşdirən, yaddan çıxmağa, unudulmağa qoymayan kitabdır. O, bilik, təcrübə, ədəb xəzinəsidir.

İctimai həyatın müasir inkişaf səviyyəsi, orada gedən çox dərin dəyişikliklər, ümumiyyətlə, informasiya sisteminin, o cümlədən də biblioqrafik informasiyanın qarşısında yeni ciddi tələblər qoyur. Bu, biblioqrafik informasiya tələbatçılarının fəallaşması və bu tələbatlarda milli-mənəvi istiqamətlərin formalaşması həmçinin bəşəri, mənəvi dəyərlərə yiyələnmək zərurətilə də bağlıdır.Biblioqrafik fəaliyyətin müasir təşkili prosesində demokratik prinsiplər əsas tutularaq tələbatçıların biblioqrafik informasiya tələbatlarının təminatında hər cür ideologiya məhdudiyyətinə son qoyulmuşdur. (3)

Müasir biblioqrafik fəaliyyətin inkişafında Kitab Palatası, kitabxanalar və elmi-informasiya orqanları mühüm rol oynayır. Respublikamızda biblioqrafik fəaliyyətin əsas mərkəzləri müəyyənləşdirilərkən onları ümumi və xüsusi biblioqrafik fəaliyyət sahələrinə görə fərqləndirmək olar. Azərbaycanda ümumi biblioqrafiyanın əsas mərkəzi Respublika Dövlət Kitab Palatası hesab olunur.(2)



1925-ci ildən fəaliyyət göstərən Kitab Palatasının əsas funksiyaları respublika çap əsərlərinin toxunulmaz arxivini yaratmaqdan, onların dövlət qeydini aparmaqdan, haqqında ardıcıl cari biblioqrafik informasiya verməkdən, əlaqədar təşkilatlara, elmi idarələrə və ayrı-ayrı tədqiqatçılara biblioqrafik xidmət göstərməkdən, Azərbaycan mətbuatı haqqında statistik məlumatı hazırlayıb dərc etdirməkdən ibarətdir. Palata funksiyalarını həyata keçirərkən nəzarət nüsxələrinə əsaslanır. Kitab Palatasının ümumi biblioqrafik fəaliyyətinin məhsulu "Azərbaycan mətbuat salnaməsi"ndən, Birillik Azərbaycan Kitabiyyatı"ndan və həmçinin çap kartoçkalarından ibarətdir. "Azərbaycan mətbuat salnaməsi"nin əsası 1926-cı ildən qoyulub . Palata 1926-cı ildən "Kitab Salnaməsi"ni, 1938-ci ildən "Jurnal məqalələri salnaməsi"ni və "Qəzet məqalələri salnaməsi"ni çap etdirir. 1960-cı ildən isə bu üç biblioqrafik jurnal birləşdirilir və "Azərbaycan mətbuat salnaməsi" adı ilə ayda bir dəfə nəşr edilir və Azərbaycan ərazisində çıxan yeni kitablar və məqalələr haqqında ardıcıl cari biblioqrafik informasiya vermək vəzifəsini yerinə yetirir. Respublika Dövlət Kitab Palatası repertuar xarakterli biblioqrafik göstəricilərin hazırlanmasında və nəşrində yaxından iştirak edir. Palata 1950-ci ildən Azərbaycanda çıxan kitablara dair çap kartoçkaları buraxır və bu da respublikanın kitabxanalarında kataloqlaşdırma işinin mərkəzləşdirilməsində müəyyən əhəmiyyət kəsb edir. Beləliklə, Respublika Dövlət Kitab Palatası Azərbaycanda ümumi biblioqrafik fəaliyyətin mərkəzi kimi biblioqrafik informasiyanın iki əsas ictimai funksiyasının (axtarış və komunikativ) əməli olaraq həyata keçirilməsinə təsir göstərən biblioqrafik mənbələrin yaradılması və tələbatçılara çatdırılması ilə məşğuldur. (3)

Müstəqillik dövründə M.F.Axundov adına Milli Kitabxana aparıcı kitabxana statusuna malik olmuşdur. Əvvəllər dövlət biblioqrafiyasının əsas mərkəzi olan Respublika Kitab Palatasının funksiyaları da Milli Kitabxananın fəaliyyətinin tərkib hissəsinə çevrilmişdir. Müasir dövrdə Milli Kitabxananın fəaliyyətinin mühüm vəzifələri və istiqamətləri Azərbaycan Respublikası Nazirlət Kabinetinin 2000-ci il 6 mart tarixli 30 nömrəli qərarı ilə tədiq edilmiş "Azərbaycan Milli Kitabxanasının Əsasnaməsi"ndə geniş işıqlandırılmışdır.

Hazırda Azərbaycanda ümumi biblioqrafiyanın fəaliyyətində M.F.Axundov adına Milli Kitabxana mühüm əhəmiyyətə malikdir. Kitab Palatası öz işini Milli Kitabxananın Çap məhsullarının qeydiyyatı və milli biblioqrafiya şöbəsinə həvalə etmişdir. 2003-cü ildən şöbə Milli Kitabxanaın nəzdində fəaliyyətə başladı və "Birillik Azərbaycan kitabiyyatı"nın 1990, 1991, 1994-2011-ci illəri əhatə edən nəşrləri çap edildi. "Yeni kitablar" annotasiyalı biblioqrafik gostərici 2006-cı ilin buraxlışları il ərzində 2 dəfə çapdan çıxırdı lakin hal-hazırda 2007-ci ildən bu günə kimi ildə 4 dəfə rüblük olaraq çapdan çıxır. İndiyə kimi kitabxanaya daxil olan "Yeni kitablar" annotasiyalı

biblioqrafik göstəricinin 2006, 2007, 2008, 2009, 2010, 2011-ci ilin 1-ci və 2-ci buraxlışları çap olunmuşdur. 1941-1960-cı illəri əhatə edən "Azərbaycan kitabı"nın 3-cü cildi hazırlanıb. (5) Apardığım hesablamalara görə 2013-cü ildə kitabxanaya 20039 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. Onlardan 8383 nüsxə ədəbiyyat Azərbaycan dilində olan kitabları əhatə edirdi. 2014 ildə 1259 adda azərbaycan dilində, 111 adda rus dilində, 1073 adda isə Azərbaycandan kənarda nəşr olnan kitablar kitabxanaya daxil edilmişdir.

Milli biblioqrafiya vəsaitləri ölkə ərazisində dərc olunan ədəbiyyatın retrospeкtiv biblioqrafiyasının tərtibində və кitab nəşri statistiкasının aparılmasında mühüm əhəmiyyət кəsb edir. Tarixi-xronoloji və nəşriyyat tarixi baxımından özündə çox qiymətli məlumatları əks etdirən bu vəsaitlər ayrı-ayrı elm sahələri üzrə elmi tədqiqatların və araşdırmaların aparılmasında əvəzsiz rol oynayırlar.

Müasir dövrdə oxucuların rəngarəng sorğularının ödənilməsində milli biblioqrafiya vəsaitlərinin əhəmiyyəti çox böyüкdür. Məhz ölkə ərazisində dərc olunan bütün çap məhsullarını toplu şəкildə özündə əкs etdirən milli biblioqrafiya vəsaitləri oxucuların, mütəxəssislərin, alimlərin, ziyalıların və nəhayət кitabxanaçıların daha çox müraciət etdikləri məlumat nəşrlərindəndir. 1960-cı ildən nəşr edilən "Birillik Azərbaycan Kitabiyyatı" il ərzində dilindən, mövzusundan, janrından asılı olmayaraq respublikada nəşr edilmiş bütün kitablar barəsində tam biblioqrafik məlumat verir. "Birillik Azərbaycan Kitabiyyatı"nda olan yardımçı göstəricilər və statistik məlumatlar respublikada nəşr edilən kitab məhsulunun tərkibi barədə müxtəlif aspektli informasiya əldə etməyə imkan yaradırdı. Uzun illər ərzində kitabxanaçılar, biblioqraflar və ən müxtəlif tələbatçı qrupları tərəfindən geniş istifadə edilirdi. Həmin vəsaitə nəinki respublikamızda, həm də onun hüdudlarından kənarda böyük tələbat var idi. Lakin vəsaitlər üçün materialların toplanması davam etsə də, müxtəlif təşkilati və maliyyə çətinlikləri üzündən 1986-cı ildən etibarən həmin vəsaitin nəşri dayanmışdır. Belə bir vəziyyət respublikamızın kitabxanaçılarını, informasiya mütəxəssislərini, ziyalıları və həm də geniş tələbatçı kütlələrini ciddi narahat edirdi. 1980-cı illərin sonlarından Azərbaycan Dövlət Kitab Palatasının fəaliyyəti xeyli məhdudlaşdığından və 1999-cu ildə Milli Məclis tərəfindən qəbul edilən "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə ölkə ərazisində dərc olunan çap məhsullarının dövlət uçotunu aparmaq və arxiv fondunu yaratmaq Milli Kitabxanaya həvalə olunduğundan bu iş dayandırılmışdı. Lakin "Milli kitabxana" statusu hələlik heç bir kitabxanaya verilməyindən bir neçə il bu vacib iş aparılmırdı. 2004-cü ildə M.F.Axundov adına Dövlət Kitabxanasına "Milli Kitabxana" statusu verildikdən sonra milli biblioqrafiya vəsaitlərinin nəşri işi yenidən gündəmə gəldi və həmin ilin iyununda 1990-cı ilə aid ilk buraxılış uzun fasilədən sonra işıq üzü gördü - oxuculara təqdim olundu. Bir qədər sonra isə 1991-ci ilə aid ikinci buraxılış çap olundu. (4)



XX ərdə Azərbaycanda zəngin informasiya sərvətlərinə malik olan Milli Kitabxananın yaranıb inkişaf etməsi milli elm və mədəniyyətin ən böyük uğurlarından biridir. Milli Kitabxanada formalaşmış sənəd informasiya kütləsi alimlərin, yaradıcı adamların təfəkkürünün bəhrəsi, elmimizi, mədəniyyətimizi və iqtisadiyyatımızı yaşadan və inkişaf etdirən mənəvi xəzinədir. Əsası 1923-cü ildə qoyulan Milli Kitabxana ötən dövr ərzində xalqımızın maariflənməsində, ölkəmizin elmi, iqtisadiyyatı, mədəniyyəti və təhsilinin inkişafında öz müstəsna rolunu nümayiş etdirmiş, cəmiyyətin mühüm informasiya infrastrukturu kimi onun intellektual potensialının inkişafına səmərəli təsir göstərən zəngin bilik xəzinəsinə çevrilmişdir.

## ƏDƏBİYYAT


1. Birillik Azərbaycan Kitabiyyatı – 2013. Bakı: M.F.Axundov adına Milli Kitabxana, 2014.- 350s.
2. Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007, 185s
3. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001, 145s
4. Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodiki və təcrübi jurnal. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2008.- № 2.- 188s.
5. http://anl.az/new/az/section/5/27-ChAP-MEHSULLARININ-QEYDIYYATI-VE-MILLI-BIBLIOQRAFIYA-ShOBESI-(KITAB-PALATASI)


А.А.Мамедова

## АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ БИБЛИОГРАФИЯ: СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ

### РЕЗЮМЕ

В статье исследован современное состояние и перспективы государственной библиографии в Азербайджане, А такжеобобщен опыт Национальный Библиотеке имени М.Ф.Ахундоваав облости государственной библиографии, анализирована состаяние макро и микро поток документов на основе "Ежегодник книга Азербайджана"

A.A.Mammadova

## STATE BİBLİOGRAPHY OF AZERBAİJAN: MODERN STATUS AND PERSPECTİVES

### SUMMARY

Modern state and development prospects of bibliography in Azerbaijan have been investigated in the article. At the same time, the role of the Azerbaijan National Library named after M.F.Akhundov in the creation of the state bibliography has been noted; analysis and document flow situation has been defined on the basis of the structure of the "Annual Azerbaijan Bibliography"